# Pandemiyada təhsilimiz

## Təhsilin modernləşdirilməsi

Texnologiya inkişaf etdikcə dünya hərtərəfli modernləşir. İnsanların düşüncə tərzinin dəyişməsi və iş mühitinin tələblərinə uyğun olaraq yeni yanaşmalar ortaya çıxır. Artıq təhsil almaq yaş həddi ilə sərhədlənmir. Müasir kadr yalnız ona olan tələbatı qoruyub saxlamaq üçün inkişaf etməlidir, karyera pilləsində yüksəlmək kimi nəticələr isə daha çox səriştə tələb edir.

İnsanların təhsili ənənəvi təhsil pillələrini (bakalavr, magistr, fəlsəfə doktoru və s.) qazandıqdan sonra da müxtəlif ixtisas artırmalar, kurslar və s. ilə davam edir. Bu səbəbdən də son dövrlərdə "andraqogika"- yaşlı insanlara hədəflənən tədris termini aktuallıq qazanır.

Son dövrlərdə standart təhsil sistemində tələbənin bilikləri onun məlumatlılıq səviyyəsi ilə deyil, daha çox bacarıqları və səriştəsi ilə qiymətləndirilir. Bu səbəbdən praktik biliklərin gücləndirilməsinə yönəlik təhsil texnologiyaları onlayn simulyatorlar yaradılmağa başlanılıb.

Buna nümunə olaraq xarici diplomatik əlaqələr simulyatoru, tibb mütəxəssisləri üçün virtual xəstə simulyatoru, müxtəlif simulyatorları özündə cəmləşdirən portallar göstərilə bilər.

İş mühitinin tələblərinə uyğun olaraq təhsil sitemində yenilik hesab olunan başqa bir tendensiya hibrid kadrların (iki və daha çox sahədə ixtisaslaşmış) yetişdirilməsidir. Əgər əvvəlki təhsil sistemində bir istiqamətdə dar, ancaq dərin ixtisaslaşma önəmli hesab olunurdusa, hazırda bu yanaşma dəyişərək hərtərəfli, bacarıqlı kadrların əmək bazarında daha çox tələb olunmasına səbəb olub. Hərtərəfli, bacarıqlı dedikdə də bir neçə ixtisasa qeyri-peşəkar sahib olmaq deyil, əsas ixtisasın əlavə bacarıqlar və digər ixtisasla birləşdirilmiş olması nəzərdə tutulur. Məsələn, iqtisadi psixologiya, informatika və proqramlaşdırma, fəlsəfə kimi sahələrdə əlavə bacarıqlar əldə edilərsə, həmçinin texnoloji biliklərə yiyələnərsə, iqtisadi sahədə daha çox ixtisaslaşmış kadrdan bir addım önə çəkmək olar.

Çoxları yeni təhsil texnologiyaları dedikdə yalnız məsafədən onlayn dərsləri nəzərdə tutur, lakin bu anlayış daha çox yüksək texnoloji həllərin, yeni yanaşmaların və metodların tətbiq olunduğu bir təhsil sistemini izah edir. Bu sahədə bir çox standartlar investorların diqqətini cəlb etməyi bacarırlar.

**Bu günün və sabahın peşələri**

Yaxın keçmişdə iqtisadiyyat və biznesin idarə edilməsi ixtisasları daha aktual sayılırdı. Bu günümüzdə isə proqramlaşdırma və kompyuter texnologiyaları gələcəyin peşəsi kimi qiymətləndirilir. İnsanın özünün artıq formalaşmış xarakteri və düşüncə tərzi bu sahədə önəmli faktorlardır.

Kompyuter texnologiyaları (proqramist, şəbəkə və sistem administratorları ,frontend vebsaytların istifadəçilərə görünən tərəfi) dizayneri, kompyuter mühəndisi və s. və onun müxtəlif istiqamətləri ilə əlaqəli peşələr (sosial media meneceri, data analitiki və s.) gələcəyin peşələri adlandırıla bilər. Həmçinin mövcud müxtəlif ixtisasların rəqəmsallaşması nəticəsində yaranan rəqəmsal marketoloq, dron pilotu, D printer texniki, virtual reallıq üzrə dizayner, rəqəmsal reabilitasiya məsləhətçisi və s. kimi yeni peşələr də bu siyahıya aid edilə bilər.

Modern elmlər–biotibb və sintetik biologiya, genetika sahələrinin mühəndisləri, biotexnologiya və neytrotexnologiya üzrə ixtisaslaşmış kadrlar da gələcək üçün tələb olunan hesab olunurlar.

Gələcəyin peşələri haqda danışılarkən bir çox sahələrdə insan kapitalına olan tələbin azalmasını da düşünürük. Ancaq elə sahələr var ki, orada mütləq iştirak tələb olunur. Robotlar emosiyaların mütləq iştirakı tələb olunan peşələrdə (müəllim, həkim, tibb bacısı, psixoloq) insanları əvəz etməkdə acizdirlər. Eyni zamanda, kreativlik üzərinə qurulmuş peşələrdə də (incəsənət, yazıçılıq, və s.) insan amili əvəzolunmazdır.

Buna görə də, texnoloji inkişafın istənilən pilləsində yaxın və orta gələcək üçün bu peşələrin öz aktuallığını itirməyəcəyini proqnozlaşdırmaq mümkündür.

Son zamanlarda ənənəvi təhsil sisteminə və diplom anlayışına yanaşmalar dəyişib. Şirkətlər universitet məzunlarının praktikada heç də hər zaman mükəmməl olmadıqlarını sınayaraq kadrları seçərkən artıq təhsil səviyyəsinə və təhsildə əldə etdikləri uğurlara deyil, praktik biliklərə və səriştəyə daha çox önəm verməyə başlayıblar.

Tələbənin yaddaşının gücü, mövzuyla bağlı məlumatlı olması deyil, problemləri qısa zamanda həll edəbilmə bacarığının olması daha önəmli sayılır. Yeni təhsil sistemində daha əvvəlki təhsil göstəriciləri (attestat və diplom üzrə qiymətlər) seçimində heç bir təsirə malik deyil.

Onlayn təhsil insanların təhsil almaq imkanlarını artıraraq daha geniş aspektdə təqdim edən bir forma olaraq həm vaxt, həm məkan, həm seçimlər, həm də xərclər baxımından çox sərfəlidir.

**Pandemiya dövrünün təhsili**

Pandemiya dövründə Azərbaycanda yeni təhsil modelinə keçidin başlanğıcı bu inqilabı islahatların ilkin mərhələsidir. Ekspertlərin rəyinə görə, distant təhsilə keçid, onlayn tədris layihələri ən uğurlu və doğru qərar idi.

Bildiyimiz kimi, pandemiya dövründə martın əvvəlindən təhsil ocaqlarının fəaliyyəti izolyasiya səbəbi ilə dayandırıldı. Karantin dövründə yaranan boş vaxtlarını təhsilə, müxtəlif kurslara ayıraraq səmərəli keçirməyə çalışan insanların sayı çoxalır.

Pandemiya dövründə onlayn təhsil aktuallıq qazandı. Qısa müddətdə əvvəllər yalnız oflayn fəaliyyət göstərən məktəblərin, kolleclərin, universitetlərin özlərinin onlayn təhsil sistemlərini qurmaları mümkün olmadığı üçün artıq mövcud olan platformalarla əməkdaşlığa başlayaraq bu boşluğu müvəqqəti olaraq doldura bildilər. Bir çox təhsil ocağı imtahanların onlayn təşkilində çətinliklərlə üzləşdilər.

Bu baxımdan imtahanların ləğv olunması və ya alternativ üsullarla (onlayn kursları keçərək ordakı imtahanları verməklə) əvəz olunması həyata keçirildi.

Onlayn təhsil anlayışına sosial şəbəkələr vasitəsilə tədrisin həyata keçirilməsini də aid etmək olar. "Youtube" vasitəsilə müxtəlif kursların keçirilməsi praktiki biliklərin paylaşılması buna sübutdur.

Ölkə vətəndaşlarının əksəriyyəti yeniliklərə açıq düşüncə tərzi ilə yanaşır. Bu isə Azərbaycanda təhsil sisteminin modernləşdirilməsi, universitetlərin texnoloji baxımdan təkmilləşdirilməsi və ictimai təbliğatların aparılması fonunda qısa müddətdə və uğurla həyata keçirilə bilər.

**Afət SÜLEYMANOVA,**
**Qəbələ şəhəri.**

## Növbə təhsilə çatdı...

Dünyada həmçinin ölkəmizdə koronavirus (COVİD-19) infeksiyasının yayılması ilə əlaqədar 03 mart 2020-ci il tarixindən bütün təhsil müəssisələri bağlanılmışdır. Pandemiyanın kütləvi itkilərə səbəb olması və hələ uzun müddət davam edəcəyini nəzərə alan Təhsil Nazirliyi, onun tabeçiliyində fəaliyyət göstərən təhsil şöbələri təhsilin fasiləsizliyinin təmin edilməsi ilə bağlı olduqca ciddi tədbirlər görmüşlər. Hələ mart ayından tədris prosesinin dayanması ilə əlaqədar Təhsil Nazirliyi çevik qərar qəbul edərək Teledərs, Virtual Məktəb layihəsini həyata keçirmiş və bunun nəticəsində şagirdlər üçün tədrisin normal axını davam etdirilmişdir. Qəbələ rayon Təhsil Şöbəsi də yaradılan bu imkandan səmərəli istifadə edərək qabaqcıl müəllimləri bu işə səfərbər etmiş və bunun nəticəsində rayon ərazisində təhsilin fasiləsizliyini təmin edərək, böyük uğurlara imza atmışdır.

Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesini sanitar-epidemioloji vəziyyətə uyğun olaraq təşkil etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 29 avqust 2020-ci il 312 nömrəli qərarına görə təhsil müəssisələrində ibtidai təhsil səviyyəsində 15 sentyabr, ümumi orta təhsil səviyyəsində (V-IX) oktyabrın1-dən, tam orta təhsil səviyyəsində ( X-XI) isə oktyabrın 15 -dən başlayır. Qəbələ Rayon Təhsil Şöbəsi, 4 saylı ƏMHM ilə birlikdə rayonda fəaliyyət göstərən ümumitəhsil məktəbləri ilə bu qərardan irəli gələn vəzifələrin həlli istiqamətində mühüm və planlı iş aparır. Artıq məktəblərdə tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin mütəmadi davam etdirilməsi, təhsilalanların sıxlığı yüksək olan təhsil müəssisələrində siniflərin qrupların yarımqruplara bölünməsi, yaş qrupları kursları üzrə dərs və dərsdənkənar məşğələlərdə növbəlilik rejiminin tətbiqi, dərs- məşğələ otaqlarında sosial məsafənin gözlənilməsi ilə bağlı məktəb direktorları təlimatlandırılmış, bütün sinif otaqlarının kvadrat ölçüsü müəyyənləşmiş, şagird sayına müvafiq olaraq siniflərin sinif otaqlarının ölçüsünə görə təyini, şagirdlərin sinif otaqlarında sosial məsafənin qorunması naminə çarpaz şəkildə əyləşdirilməsi ilə bağlı məktəb direktorlarına konkret tapşırıqlar verilmiş, həmçinin direktorların nəzərinə çatdırılmışdır ki, havadamcı yolu ilə keçən yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandığı zamanı mövcud qaydalara və təlimata uyğun şəkildə gigiyena və epidemiologiya mərkəzlərini məlumatlandırsınlar və onların rəyi ilə ayrı-ayrı siniflərin fəaliyyətinin dayandırılmasını təmin etsinlər. Şagirdlərin məktəbə davamiyyəti valideynin arzusu ilə həyata keçiriləcəkdir. Dərslərdə iştirak etməyən şagirdlər onlayn dərslərə cəlb ediləcəkdir.

Məktəblərin yeni dərs ilinə hazırlanmasında və tədrisin keyfiyyətinin yüksəldilməsində şagirdlərin dərsliklərlə təmin olunması əsas vəzifələrdən biridir. Bu məqsədlə ötən iyul ayından Təhsil Nazirliyi tərəfindən xeyli sayda dərslik və müəllimlər üçün metodik vəsait verilmiş, həmin dərsliklərin məktəblərə və şagirdlərə çatdırılması təmin edilmişdir. Hal- hazırda çatışmayan dərsliklərin siyahısı hazırlanır və ən qısa zamanda həmin dərsliklərin siyahısı Təhsil Nazirliyinə təqdim ediləcəkdir.

Məktəblərin ixtisaslı pedaqoji kadrlarla tam təmin edilməsi məqsədilə Təhsil Nazirliyinə 12 ixtisas üzrə 114 müəllimə ehtiyac olduğu barədə müraciət edilib. Hal-hazırda həmin yerlərin tutulması ilə bağlı Təhsil Nazirliyi tərəfindən müəllimlərin işə qəbulu üzrə müsabiqəsi davam etdirilir.

Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni məktəb binası və əlavə sinif otaqlarının tikintisi, əsaslı və cari təmir işləri xüsusi diqqət mərkəzindədir. Rayonun Vəndam qəsəbə 2 saylı məktəbi üçün yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Bum qəsəbə tam orta məktəbi üçün 624 yerlik, Zarağan kənd tam orta məktəbi üçün isə 528 yerlik məktəb binalarının tikintisi ilə bağlı qərar qəbul edilmişdir. Bütün məktəblərdə cari təmir işləri davam etdirilir.

**Arifə BAYRAMOVA,**
**təhsil şöbəsinin müdiri.**

## Sizinlə fəxr edirik



Əvvəlki tədris illərində olduğu kimi 2019-2020-ci tədris ili də Qəbələ rayonunun təhsil kollektivləri üçün uğurlu olmuşdur. Çox sevindirici haldır ki, bu il məktəbi bitirən 1135 nəfər məzundan 32 nəfəri qəbul imtahanlarından 600-dən yuxarı bal toplamışdır. Qəbələ şəhər 4 saylı tam orta məktəbin 7 nəfər, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin 5 nəfər, Nohurqışlaq kənd tam orta məktəbin 3 nəfər, Qəbələ şəhər 3 saylı tam orta məktəbin 3 nəfər məzunu 600-dən yuxarı bal toplayaraq digər məktəblərimizi geridə qoymuşlar. Tələbə adını qazanmış bütün məzunları təbrik edir, onlara təhsildə və həyatda uğurlar arzulayırıq.

Nohurqışlaq kəndində doğulub, kənd tam orta məktəbini bitirib. Təhsilə, elmə marağı daha güclü olan İsmayıl Cahangir oğlu Məsimov həm də rayon Kaspi kursunun dinləyicisi olmuşdur. Pandemiya dövründə də təhsilin yeni sistemdə davam etməsinə baxmayaraq-,İsmayıl qəbul imtahanlarına daha səylə hazırlaşmış və rayon üzrə ən yüksək bal toplamışdır. Qəbələ belə gənclərlə fəxr edir və inanır ki, o gələcəkdə seçdiyi ixtisas üzrə savadlı, bacarıqlı və xalqımıza layiqli bir mütəxəssis kimi yetişəcək.

**Qəbələ Rayon Təhsil Şöbəsi.**